# MÜSTƏQİLLİK İLLƏRİNDƏ KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİNİN ELMİ NƏŞRLƏRİ (2000-2012-ci illər)

**Solmaz SADIQOVA**
***Bakı Dövlət Universiteti***
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi,***
***tarix üzrə fəlsəfə doktoru***

*Məqalə 2000-ci ildən sonra Kitabxanaçılıq-informasiya fakültəsində çap olunmuş elmi nəşrlərə həsr olunmuşdur.İnformasiya əsrinin tələblərinə uyğun çap olunmuş dərslik, dərs vəsaitlərinin tədrisə köməyindən,bu sahədə yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsində həmin elmi nəşrlərin əhəmiyyətindən bəhs olunur*

***Açar sözlər:*** İnformasiya əsri, Kitabxanaçılıq-informasiya fakültəsi, elmi nəşrlər, dərslik, yüksəkixtisaslı mütəxəssis.

Müstəqillik illərində Kitabxanaçılıq-informasiya fakültəsinin elmi nəşrlərindən danışarkən ilk növbədə Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, «Şöhrət» ordenli, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfovun elmi fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Ona görə ki, 2000-2012-ci illər alimin yaratdığı əsərlər, apardığı tədqiqatlar öz məzmunu, elmi əhəmiyyəti baxımından əvvəllər yazdığı çoxsaylı əsərlərinin məntiqi davamı olmaqla yanaşı, müəllifin elmi təfəkkürünün, zəhmətsevərliyinin və öz peşəsinə vurğunluğunun daha yüksək zirvələrə çatdığından xəbər verir.

Professor Abuzər Xələfovun 2000-2012-ci illərdəki elmi fəaliyyəti çox geniş və əhəmiyyətlidir. Professorun bu dövrdə zəngin yaradıcılıq yolu, elmi ictimaiyyətin dərin rəğbətini qazanan, görkəmli ziyalı alim, müəllim, fədakar elm, mədəniyyət və təhsil xadiminin keçdiyi şərəfli bir yoldur.

Amerika Bioqrafiya İnstitutunun direktoru Y.M.Evansın imzası ilə BDU-nun professoru Abuzər Xələfovun ünvanına xoş məramlı məktub gəlmişdir. Məktubda deyilir: «Azərbaycan kitabxanaçılıq elminin banisi, milli kitabxanaların tarixinin görkəmli tədqiqatçısı, Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcısı, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfov Amerika Bioqrafiya İnstitutu tərəfindən «İlin adamı - 2004» seçilmişdir». Y.M.Evansın təbrik məktubunda bildirilir ki, bu titul görkəmli şəxslərin cəmiyyətin quruculuq və inkişafındakı xidmətlərinə görə təltif edildikləri

nadir nominasiyadır.

2000-2012-ci illərdə Abuzər Xələfovun elmi-tədqiqat fəaliyyətində kitabxanaşünaslıq nəzəriyyəsinin tarixi və müasir problemlərinin işlənməsi xüsusi əhəmiyyət kəsb edir.Bu baxımdan onun 2001-2004-cü illərdə nəşr etdirdiyi 2 cildlik «Kitabxanaşünaslığa giriş» monoqrafiyası Azərbaycanda kitabxanaşünaslıq fikrinin inkişafında yeni mərhələ sayıla bilər. Azərbaycanın müstəqilliyi şəraitində kitabxanaşünaslıq nəzəriyyəsində ümumbəşəri və milli dəyərlərə, eləcə də dünya kitabxanaşünaslıq nəzəriyyəsinin müasir mütərəqqi ideyalarına əsaslanan bu əsər respublikamızda kitabxanaçılıq-informasiya ixtisası üzrə ilk dərslikdir. Burada kitabxanaşünaslığın nəzəri problemləri və metodoloji əsasları, kitabxanaçılıq fəaliyyəti tədqiq edilmişdir. Dərsliyin birinci cildində «Kitabxanaşünaslığa giriş» fənninin predmeti, bunun tərkib hissələri, cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin ictimai mahiyyəti, sosial funksiyalarının ümumnəzəri problemləri sistemləşdirilmiş və ümumiləşdirilmiş bir elmi fənn kimi əks etdirilmişdir.

Dərsliyin ən mühüm və önəmli xüsusiyyətlərindən biri də odur ki, burada dünyada kitabxanaşünaslıq fənninin inkişaf mərhələləri şərh edilmiş, Azərbaycanda orta əsrlərdən başlayaraq müasir dövrə qədər kitabxanaşünaslığın təşəkkülü və inkişafının mühüm tarixi mərhələləri işıqlandırılmışdır. Həmin kitab əhatə etdiyi problemlərə, mənbə və sənəd bazasına, materialların həcminə və təhlil üsullarına görə sanballı bir nəşrdir. Dərsliyin ən mühüm üstünlüklərindən biri də məzmunca çox mürəkkəb olan materialların dəqiq təşkili, sistemləşdirilməsi və ifadəsidir.

XXI əsrin əvvəllərində Abuzər Xələfovun xalqımızın mədəniyyət tarixinə verdiyi qiymətli töhfələrindən biri də onun 2004-cü ildə çap etdirdiyi «Azərbaycanda kitabxana işinin tarixi» adlı dərslik olmuşdur. Həmin il bu dərsliyin ölkəmizdə kitabxana işi tarixinin ən qədim dövrlərdən XX əsrə qədərki dövrünü əhatə edən I hissəsidə çap edilmişdir.

Bu əsaslı tədqiqatın ana xətti ondan ibarətdir ki, Azərbaycan xalqı hələ tarixin erkən çağlarından başlayaraq təhsilə, elmə, kitab və kitabxanalara çox böyük qiymət vermiş, milli sərvətimiz olan yazı abidələrinin toplanıb saxlanılmasında, əsrdən-əsrə, nəsildən-nəslə çatdırılmasında kitabxanalarımız əvəzsiz rol oynamışlar. Müəllifin yazdığı kimi, vətən tarixini öyrənmək, öz soykökünə qayıtmaq, qan yaddaşını bərpa etmək hər bir insanın şərəfli vəzifəsidir, vətəndaşlıq borcudur. Tarix insanlara keçmişin ibrət dərsini anlamaqda, vətən qarşısındakı borcunu başa düşməkdə, vətənə məhəbbəti, torpaq sevgisi borcunu başa düşməkdə, torpaq sevgisi yaratmaqda, əsrlərdən bəri yaranıb formalaşan milli mənəvi sərvətlərə yiyələnməkdə güclü amildir. Professor A.A.Xələfovun xalqımızın kitab və kitabxana tarixinə həsr etdiyi bu əsəri məhz həmin niyyətlərə xidmət edən qiymətli tədqiqatdır.

2006-cı ildə professor A.Xələfovun Azərbaycan elmi və mədəniyyətinə





verdiyi qiymətli töhfələrdən biri də onun «Heydər Əliyev və Azərbaycanda kitabxana işi» adlı monoqrafiyasıdır.Professor A.A.Xələfov kitaba daxil etdiyi əlavələrdə kitabxana işi ilə bağlı olan bir sıra mühüm sənədləri də oxucuların diqqətinə çatdırmağı lazım bilmişdir. Burada müasir dövrdə müxtəlif tipli və növlü kitabxanalarda Heydər Əliyev irsinin səmərəli təbliği məqsədilə ümummilli liderin həyat və fəaliyyətinin qısa tarixçəsi, təltifləri, əsərlərindən seçmələr, dünyanın görkəmli siyasətçilərinin, elm və mədəniyyət xadimlərinin onun haqqında fikirləri verilmişdir.

2006-cı ildə professor A.Xələfov elm və təhsil sahəsindəki əvəzsiz xidmətlərinə görə Heydər Əliyev Fondunun təsis etdiyi «Mədəniyyətin dostları» təqaüdünə layiq görülmüşdür. Həmin ildə Azərbayan Respublikası Təhsil Nazirliyinin əmri ilə A.Xələfov «Qabaqcıl təhsil işçisi» döş nişanı ilə təltif edilmişdir.

A.Xələfovun XXI əsrin ilk illərində yazdığı elmi məqalələrində ölkəmizin müstəqilliyi şəraitində cəmiyyətdə kitabxana işinin sosial-siyasi, iqtisadi və tərbiyəvi əhəmiyyəti, informasiya cəmiyyətinin formalaşmasında kitabxanaların rolu və vəzifələri hərtərəfli işıqlandırılmışdır. Bu məqalələr müasir dövrdə kitabxana işinin modernləşdirilməsi, informasiyalaşdırılması, ayrı-ayrı kitabxana proseslərinin yeniləşməsi vəzifələri haqqında geniş təsəvvür yaradır.

Abuzər Xələfovun elmi məqalələri mücərrəd səviyyə daşımayıb, əksər hallarda konkret obyekt, şəxs və ya problem əsasında qurulmuş təhlil xarakteri daşıyır, ayrı-ayrı kitabxanaların fəaliyyətinə qiymət verir, onların gələcək inkişaf perspektivlərinə dair qiymətli tövsiyələr verir.

Bu məsələlərlə yanaşı, Abuzər Xələfovun ümummilli lider Heydər Əliyevə həsr edilmiş məqalələrində bu böyük şəxsiyyətin ölkədə kitabxana işinin inkişafındakı rolu, müasir dövrdə ölkə kitabxanalarında Heydər Əliyevin əsərlərinin təbliğinə xüsusi diqqət yetirilir.

Professor Abuzər Xələfovun «Azərbaycanda kitabxana işinin tarixi» adlı dərsliyinin II hissəsi 2007-ci ildə çapdan çıxmışdır.

«Azərbaycanda kitabxana işinin tarixi» dərsliyinin II hissəsi XX əsrin birinci yarısında respublikamızda kitabxanaların yaranması, inkişafı və formalaşması məsələlərinin tədqiqinə və təhlilinə həsr olunmuşdur. Müəllif müxtəlif tipli və növlü kitabxanaların inkişaf xüsusiyyətlərini ölkənin ictimai-siyasi, elmi-mədəni və sosial-iqtisadi həyatı ilə vəhdətdə şərh etmiş, kitab nəşri, mətbuat və mədəniyyətin digər sahələri ilə sıx əlaqələndirmişdir.

Professor A.Xələfovun daha bir əsəri - «Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir» kitabı 2009-cu ildə çapdan çıxmışdır. Kitabda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına 34 illik rəhbərliyi dövründə Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində misilsiz xidmətləri, həyata

keçirdiyi kitabxana siyasəti ümumiləşdirilmiş və bu siyasətin ulu öndərin layiqli varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi işıqlandırılmışdır.

Görkəmli alimin «Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində» adlı monoqrafiyası Bakı Dövlət Universitetinin yaradılmasının 90 illik yubileyinə həsr olunmuş çox qiymətli əsərdir. İlk dəfə nəşr olunan bu monoqrafiyada ayrıca bir kitabxananın - Bakı Dövlət Universiteti Elmi Kitabxanasının 90 illik tarixi əhatəli tədqiq edilmişdir.

2009-cu ildə professor Abuzər Xələfovun böyük xidmətlərini nəzərə alan Azərbaycan KİVİHİ öz qərarı ilə onu «Qızıl qələm» diplomuna layiq görmüşdür. Elə həmin ildə Əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin professoru Abuzər Xələfov «İlin nüfuzlu ziyalısı» Fəxri diplomuna layiq görülmüşdür.

Abuzər Xələfovun «Azərbaycanda kitabxana işinin tarixi» adlı dərsliyinin III hissəsi «Bakı Universiteti» nəşriyyatında 2010-cu ildə çap olunmuşdur. «Azərbaycanda kitabxana işinin tarixi» dərsliyinin III hissəsi XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində respublikamızda müxtəlif kitabxana şəbəkələrinin inkişafı və formalaşması məsələlərinin araşdırılmasına və ümumiləşdirilməsinə həsr edilmişdir. Müəllif kitabxana işinin tarixini Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi tədqiq etmiş, ölkəmizin mədəni inkişafında kitabxanaların rolunu və vəzifələrini elmi şəkildə sistemləşdirmişdir.Dərslikdə XX əsrin 70-80-ci illərində respublikamızda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsinin hərtərəfli tədqiqinə və öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Ömrünün 60 ilini kitabxana işi tarixinin araşdırılmasına, kitabxanaçılıq elminin formalaşdırılmasına, inkişafına və təcrübədə tətbiq edilməsinə, yüksəkixtisaslı kadrların yetişdirilməsinə həsr etmiş alimi yaxın və uzaq xarici dövlətlərdə də yaxşı tanıyırlar. O, kitabxana işinin tarixinə və kitabxanaşünaslığın aktual məsələlərinə dair çoxsaylı dərs vəsaitləri, monoqrafiyalar və elmi məqalələrin müəllifidir.

2010-cu ildə Amerika Bioqrafiya İnstitutu Abuzər Xələfovu «İlin adamı» elan etmiş və onu «Qızıl medal»la mükafatlandırmışdır. «Şöhrət» ordenli professor Abuzər Xələfovun belə nüfuzlu titula layiq görülməsi Azərbaycanda kitabxanaçılıq elminin dünyada tanınmasına dəlalət edir.

2011-ci ilin may ayında AMEA Mərkəzi Elmi Kitabxanasında «Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə elmi-tədqiqat işlərinin ümumrespublika müsabiqəsi»nin yekunları ilə bağlı tədbir keçirilib. Kitabxanaşünaslıq üzrə ən yaxşı elmi-tədqiqat işinə görə Bakı Dövlət Universitetinin professoru Abuzər Xələfov diplomla təltif olunmuşdur.

Görkəmli kitabxanaşünas alim, professor A.A.Xələfovun 80 illik yubileyinin geniş şəkildə qeyd olunması haqqında Azərbaycan Respublikası Təhsil





Nazirliyi 21 aprel 2011-ci il tarixli 623 saylı əmr, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi 29 aprel 2011-ci il tarixli 211 saylı əmr və Bakı Dövlət Universitetinin rektorluğu 18 may 2011-ci il tarixli R-41 saylı əmr vermişdir. Həmin əmrlərdə geniş tədbirlər planı öz əksini tapmışdır.

Əvvəlki dövrlərdə olduğu kimi, son illər ərzində də kitabxanaşünaslıq və informasiya sahəsində respublikamızda əldə edilmiş nailiyyətlər bu alimin adı ilə sıx bağlıdır. Bu dövr ərzində də Abuzər Xələfov kitabxanaçı və kitabxanaşünas alimlərin müəllimi olmuşdur. Bu müəllimlik təkcə onun elmi-nəzəri və pedaqoji ustalığı ilə məhdudlaşmır. Abuzər Xələfov həm də yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik insandır. Təsirə qapılmamaq, öz vicdanının səsinə qulaq asmaq Abuzər Xələfovun bir ziyalı və alim kimi əxlaqi keyfiyyətlərini xarakterizə edir.

Professor Abuzər Xələfovun "Kitabxana və cəmiyyət"adlı monoqrafiyası 2011-ci ildə 348 səhifədən ibarət "Azərnəşr"də cap olunmuşdur.Ömrünü Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafı və formalaşmasına həsr etmiş Əməkdar elm xadimi, professor A.Xələfovun bu monoqrafiyası çox böyük aktuallıq kəsb edir. Kitabda cəmiyyət və kitabxana, cəmiyyət və mədəniyyət, kitab və mədəniyyət, dünya kitabxanalarının Şumerdən zəmanəmizə qədər keçdiyi inkişaf yolu, kitabxana və kommunikasiya, kitabxana və şəxsiyyət, kitabxana və uşaq dünyası, informasiya cəmiyyəti və kitabxana və s. bu kimi məsələlər geniş şərh olunmuşdur.

Kitabda müasir dövrdə mühüm əhəmiyyətə malik olan kitabxana-informasiya xidməti prosesində İnternetin kitabxana işinə tətbiqi məsələsinə də geniş yer verilmişdir. Monoqrafiya mədəniyyət və kitabxana mütəxəssisləri, müəllimlər, magistrlər, tələbələr, ümumiyyətlə, geniş oxucu kütləsi üçün çox dəyərli mənbədir.

Kitabxanaşünaslıq kafedrasının dosenti, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Azad Qurbanovun Kitabxanaçılıq-informasiya sahəsində bir sıra kitabları, o cümlədən, " Kitabxana informatikası" (C.1.2001; C.2.2002) (Xəlilov M.S., Musayeva N.N. ilə birlikdə), "İnformatika" (2003) (Xəlilov M.S. ilə birlikdə), "Kitabxana proseslərinin kompüterləşdirilməsinin əsasları" (2007) (Xələfov A.A. ilə birlikdə)," Kitabxana-informasiya fəaliyyətinin menecmenti və marketinqi" (2012.) (M.Məmmədov, P.Kazımi ilə birlikdə), "Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı" (2012) (P.Kazımi, N.İsmayılova ilə birlikdə) və s. dərslik və dərs vəsaiti tələbələr üçün çox faydalı elmi nəşrlərdəndir.

Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının müdiri, professor Xəlil İsmayılovun 2000-ci ildə çap olunmuş "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər)" monoqrafiyası Azərbaycanda kitabxanaların metodik təminat sisteminin yaranması və təkmilləşdirilməsi məsələsinin elmi cəhətdən ümu-

miləşdirilməsinə və təhlilinə həsr edilmişdir.Kitabda ilk dəfə olaraq respublikamızda metodik təminatın nəzəri və təcrübi inkişaf yolları tədqiqata cəlb edilir, kitabxanaçılıq işi üzrə ilk metodik mərkəzlərin meydana gəlməsi, ayrı-ayrı tarixi mərhələlərdə dövlət kütləvi kitabxana sistemi ilə yanaşı, Elmlər Akademiyası, Həmkarlar İttifaqı, tibb, texniki, kənd təsərrüfatı, təhsil, uşaq kitabxana şöbələrinin metodik təminatı arxiv materialları əsasında araşdırılır. Burada müxtəlif tipli və növlü kitabxanaların elmi-metodik təminat sahəsindəki uğurları, habelə nöqsanları faktlarla göstərilir. Eyni zamanda Azərbaycanın müstəqilliyi şəraitində kitabxana işinin metodik təminatının optimallaşdırılması konsepsiyası irəli sürülür.Kitab kitabxanaçılıq işi sahəsində çalışan mütəxəssislər, müəllimlər, tələbələr və kitabxana ictimaiyyəti üçün nəzərdə tutulmuşdur.

Kitabxanaşünaslıq kafedrasının dosenti Elçin Əhmədovun "Dünya milli kitabxanaları" adlı dərs vəsaiti sahə ilə bağlı informasiyanın daha da zənginləşdirilməsi nöqteyi-nəzərindən diqqəti cəlb edir. Bu dərs vəsaiti gənc mütəxəssislərə dünya informasiya məkanının formalaşmasında əhəmiyyətli rol oynayan, sosial institut statusuna malik olan dünyanın qabaqcıl milli kitabxanaları haqqında ətraflı məlumat verir.

Magistrantlar üçün nəzərdə tutulmuş dərs vəsaiti bu sahədə atılmış uğurlu addımlardan biridir.

Dosent Mehmanəli Məmmədovun Azərbaycan dilində ilk dəfə çap edilən "Kitab çeşidi işinin nəzəriyyəsi və metodikası" adlı tədris-metodiki vəsaiti nəşriyyat işi və redaktəetmə ixtisasına yiyələnən tələbələr üçün nəzərdə tutulmuşdur. Metodik vəsaitdə kitab çeşidi haqqında geniş məlumat verilmiş, çeşidin formalaşmasında istifadə edilən metodlar açıqlanmış, çeşidin təsviri və təsnifləşdirilməsi məsələləri, kitabın ayrı-ayrı növ və tiplərinin çeşiddə yeri müəyyənləşdirilmişdir.

Tarix üzrə fəlsəfə doktoru Pərviz Kazımının "Türk xalqlarının kitab və kitabxana mədəniyyəti" adlı kitabı yenicə işıq üzü görüb. Professor Abuzər Xələfovun elmi redaktorluğu ilə çap olunmuş kitabın rəyçiləri filologiya elmləri doktoru Ramiz Əsgər və dosent Knyaz Aslandır. Kitab Türk xalqlarının kitab və kitabxana mədəniyyəti istiqamətində kompleks yanaşılan ilk tədqiqat işidir. Ən qədim dövrlərdən başlayaraq yazı, yazı materialı, əlyazma kitabı və kitabçılıq texnologiyaları ilə yanaşı, dastan və əsatirlərin, müqəddəs kitabların, lüğətçilik ənənələrinin türk xalqlarının kitab və kitabxana mədəniyyətində əhəmiyyətli yeri öyrənilib, müxtəlif areallarda türk xalqlarının kitabxana quruculuğu, kitab məhsulunun repertuarı, kitabxana xidməti və mədəni əlaqələr işıqlandırılır. İlk dəfə dövlətçiliyi olan türk xalqları ilə yanaşı, dövlətçiliyi olmayan türk əsilli xalqların kitab və kitabxana mədəniyyətinin ümumi mənzərəsini yaratmağa cəhd göstərilib. Kitabda son 20 ildə baş verən kitab və kitabxana sahəsində türk xalqlarının inteqrasiyası prosesi də öz əksini





tapmışdır. Müəllifin "İnformasiya mühəndisliyi (müasir kitabxana fəaliyyəti)" adlı kitabı 2011-ci ildə çap olunmuşdur.

Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, kafedra müdiri Nadir İsmayılovun bu illər ərzində çap etdirdiyi "Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya və informasiya resurslarının inkişaf mərhələləri, vəziyyəti və təkmilləşdirilməsi yolları" adlı kitabı, "Elmi-təbii ədəbiyyatının biblioqrafiyası" adlı vəsaiti və bir sıra biblioqrafik göstəriciləri çap olunmuşdur.

Dosent Knyaz Aslanın "Qədim və orta əsrlər dünya kitabxanaları" adlı dərs vəsaiti 2008-ci ildə Bakı Universiteti Nəşriyyatında çapdan çıxmışdır. Azərbaycan dilində ilk dəfə nəşr olunan bu orijinal dərs vəsaitində qədim dövrlərdən başlamış XVII əsrin birinci yarısında dünyanın bir sıra ölkələrində kitabxanaların meydana gəlməsi və inkişafı prosesi xronoloji ardıcıllıqla şərh edilmişdir. Kitabda ayrı-ayrı tarixi mərhələlərdə yaranıb formalaşmış müxtəlif tipli və növlü kitabxanalar haqqında məlumatlar da öz əksini tapmışdır. Dərs vəsaiti ali və orta ixtisas məktəblərində kitabxanaşünas-biblioqraf təhsili alan tələbələr üçün nəzərdə tutulmuşdur. Kitabdan mütəxəssislər, müəllimlər, magistrlər, eləcə də dünya mədəniyyətinin tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün faydalı mənbədir.

Professor Bayram Allahverdiyevin 2003 cü ildə çapdan çıxmış "Ümumi kitab tarixi" kitabı Azərbaycan dilində ümumi kitab tarixi mövzusunda ilk dəfə nəşr olunmuşdur. Bu tədris-metodik vəsaitdə qədim Misir, Şumer, Çin, hind, yəhudi, türk, slavyan xalqlarınnı ən qədim yazı tipləri, sistemləri, əlifbaları, yazı materialları, əlyazma kitabları, onların meydana gəlməsi, təşəkkülü, inkişafı, istifadəsi və yayılması problemləri şərh edilir. Burada, eyni zamanda, bir sıra qədim, böyük və inkişaf etmiş dünya ölkələrində və dövlətlərində – İran, Türkiyə, İtaliya, Almaniya, Böyük Britaniya, Niderland, Fransa, Rusiya, ABŞ, Yaponiya və Çində kitabın ixtirası və yayılması, ilk mənbələr və nəşriyyatların yaranması və fəaliyyətləri tarixi xronoloji ardıcıllıqla əsaslı şəkildə izah edilir. Kitabda, həmçinin, ayrı-ayrı ölkələrdə və xalqlarda kitabın mövzusu, tipi və seriyaları və ticarəti haqqında da geniş və əsaslandırılmış məlumatlar verilir.

## KİTABXANAÇILIQ-İNFORMASIYA FAKÜLTƏSİNİN 2000-2012-Cİ İLLƏRDƏ KİTAB ŞƏKLİNDƏ ÇAP OLUNMUŞ ELMİ NƏŞRLƏRİ:

### Prof. Abuzər Xələfov


1. Respublika Elmi-Texniki Kitabxanası (1930-2000): Kitabxananın 70 illiyinə həsr olunmuş qısa tarixi oçerk. – B.: BUN, 2001. – 38s.
2. Azərbaycanda kitabxana işinin tarixi (qısa icmal). – B.: BUN, 2001. – 52s.
3. Kitabxanaşünaslığa giriş / Dərslik: 3 hissədə: h.1–2. – B.: BUN, 2001. – 400s.
4. Kitabxana işinin tarixi kursuna giriş. – B.: Bakı Universiteti Nəşriyyatı, 2002. – 38s.

5. Kitabxanaşünaslığa giriş / Dərslik: 3 hissədə: h.3. – B.: Bakı Universiteti Nəşriyyatı, 2003. – 314 s.
6. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı /Red. və ön sözün müəllifi A.M.Məhərrəmov. –B.: Bakı Universiteti Nəşriyyatı, 2003. – 434s. (S.A.Sadıqova ilə birlikdə)
7. Гейдар Алиев: Библиографический справочник / Ред. и автор выступ. слова А.М.Магеррамов. – Б.: Издательство Бакинского Университета, 2003.– 446с. ( Вместе с С.А.Садыговой)
8. Heydar Aliyev: Bibliografik reference book /Editor and preface A.M.Maharramov.- B.: Baku University Press, 2003.– 455p.(Togeather writh S.A.Sadigova)
9. Azərbaycanda kitabxana işinin tarixi /Dərslik: 2 hissədə:h.1. (Ən qədim dövrlərdən XX əsrə qədər). – B.: Bakı Universiteti Nəşriyyatı, 2004. – 328s.
10. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – B.: Azərnəşr, 2006. – 312s.
11. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar). – B., 2006. – 106s.
12. Kitabxanaların kompüterləşməsinin əsasları (Dərslik). – B.: Bakı Universiteti Nəşriyyatı, 2006. – 205s. (A.Qurbanovla birlikdə)
13. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (üç hissədə) h.2.: XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işinin tarixi. – B.: BUN, 2007. – 552s.
14. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində: Monoqrafiya / Red. K.Aslan, N.Məmmədov; Rəyçi S.İbrahimova.– Bakı: BUN, 2009.– 210s.
15. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir.– B., 2009.–185 s.
16. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik: 3 hissədə: h.3. XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi. B.: Bakı Universiteti Nəşriyyatı, 2010.–432 s.
17. Məqalələr toplusu (1990-2011-ci illər) / Elmi red.: K.Aslan, Rəyçilər: E.Y.Əhmədov, M.Ə.Məmmədov. – Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2011. – 464 s.
18. 80 yaşın ucalığı. Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri / Tərt. ed.: Pərviz Kazımi, Red.:Knyaz Aslan.– Bakı: Bakı Universiteti nəşriyyatı. – 2011. – 228 s.
19. Kitabxana və cəmiyyət /Elmi red.:L.Məmmədova, red.:K. Aslan, Rəyçilər: E.Y.Əhmədov, M.Ə.Məmmədov. – Monoqrafiya. – Bakı:Azərnəşr,2011.-348s.

**Dos. Azad Qurbanov**

20. Kitabxana informatikası:C.1. –B.: Odlar yurdu, 2001. – 238 s. (Xəlilov M.S., Musayeva N.N. ilə birlikdə)
21. Kitabxana informatikası:C.2. – B.:Odlar yurdu, 2002. – 164 s.( Xəlilov M.S., Musayeva N.N. ilə birlikdə)
22. İnformatika. – B.: Bakı Universiteti Nəşriyyatı, 2003. – 340s. (Xəlilov M.S. ilə birlikdə)
23. Riyazi proqram paketləri. – B.: "Təhsil" NPM, 2005. – 166 s. (Qurbanov İ.Ə. ilə birlikdə)
24. Fərdi kompüterlərin proqram təminatı: C.1. – B.: Çaşıoğlu, 2006. – 290s.( Abdullayeva R.A. ilə birlikdə)





25. Fərdi kompüterlərin proqram təminatı: C.2. – B.: Çaşıoğlu, 2006. – 174s.( Abdullayeva R.A. ilə birlikdə)
26. Kitabxana proseslərinin kompüterləşdirilməsinin əsasları. – B.: Bakı Universiteti Nəşriyyatı, 2007. – 200s. ( Xələfov A.A. ilə birlikdə)
27. Kompüter texnikası və proqramlaşdırma: Ali məktəb tələbələri üçün dərslik. – B.: "Təhsil" NPM, 2010. – 169 s. (Məmmədov E.M., Hüseynova A.S. ilə birlikdə)
28. İnformatika: Dərs vəsaiti. – B.: Çaşıoğlu, 2011. – 420s. (Qurbanov İ.Ə., Abdullayeva R.A ilə birlikdə)
29. İnformatika: Dərslik. – B.: Odlar yurdu, 2011. – 280 s. (Xəlilov M., Abdullayev C.S., Həsənova N. ilə birlikdə).
30. Kitabxana-informasiya fəaliyyətinin menecmenti və marketinqi: Dərs vəsaiti. – B.: Mütərcim, 2012. – 320 s. (M.Məmmədov, P.Kazımi ilə birlikdə).
31. Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı: Dərs vəsaiti. – B.: Mütərcim, 2012. ( P.Kazımi, N.İsmayılova ilə birlikdə)

**Dos. Sahib Rzayev**

32. Oxuculara xidmət: (Kitabxana xidməti): Dərs vəsaiti. – B.: BUN, 2002.-63 s.
33. Kitabxana xidməti: Dərslik. –Bakı: "Turan Evi" Nəşriyyatı, 2009.–338 s.

**Dos. Elçin Əhmədov**

34. Dünya milli kitabxanaları: Dərs vəsaiti.-B., 2007.-140s.
35. ABŞ və Rusiya kitabxanalarının iş təcrübəsində uşaq mütaliəsi məsələləri: Tədris-metodiki vəsait.-B., 2005.-50s.
36. Dünya milli kitabxanaları: Dərs vəsaiti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008. – 136 s.
37. Azərbaycanda kitabxana informasiya işinin hüquqi bazası:Dərs vəsaiti. – Bakı.- 2012. – 212s.

**Dos. Mehmanəli Məmmədov**

38. Kitab çeşidi işinin nəzəriyyəsi və metodikası: Tədris-metodiki vəsait.-B.: Mütərcim, 2005.-111s.
39. Elmi-texniki kitabxana şəbəkələrində mütəxəssislərə kitabxana informasiya xidməti: Dərs vəsaiti.– Bakı: Mütərcim nəşriyyatı, 2009. – 112 s.
40. Sənəd-informasiya daşıyıcıları.-B.:Uniprint, 2010.-283s. Ə.Rüstəmovla birlikdə.
41. Kitabxana informasiya fəaliyyətinin menecmenti və marketinqi. – B., 2012. – 350 s. (A.Qurbanovla birlikdə)

**T.f.d. Pərviz Kazımi**

42. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi: Monoqrafiya. – Bakı Universiteti Nəşriyyatı, 2008. – 178 s.
43. Kramer S. Tarix şumerdən başlanır. Bakı: BDU, 2009. – 280 s.
44. İnformasiya mühəndisliyi (müasir kitabxana fəaliyyətində). –Bakı: BUN, 2011.– 230 s.

45. 80 yaşın ucalığı. Bakı: BUN. – 2011. – 230 s.
46. 80 yaşın ucalığı: Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri prof. A.A.Xələfov haqqında: Məqalələr məcmuəsi. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011. – 228 s.
47. Azərbaycan nəsri antologiyası (Azerbaijanian prose) ingilis dilində. Bakı:Araz, 2006. – 380s. (şərikli)
48. Maksakovski V.P. Dünyanın coğrafi mənzərəsi. Bakı. – 2010, 490 s.
49. Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı:Dərs vəsaiti. – Bakı: Mütərcim, 2012 (A.Qurbanov, N.İsmayılova ilə birlikdə)
50. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti:Monoqrafiya. – B.:BUN, 2012. – 320s.
51. Kitabxana-informasiya fəaliyyətinin menecmenti və marketinqi:Dərs vəsaiti. – Bakı: Mütərcim, 320 s. (A.İ.Qurbanov, M.Məmmədov ilə birlikdə)

### B/m. Nigar İsmayılova

52. Kitabxana informatikası: Dərs vəsaiti. – C.1 /elmi red. İ.Ə.Qurbanov.-B.:Odlar yurdu, 2001.-246s. (Xəlilov M.S., Qurbanov A.İ. ilə birlikdə)
53. Avtomatlaşdırılmış kitabxana informasiya sistemləri: Metodik vəsait / elmi red. A.İ. Qurbanov, R.Ə.Kazımov.-B.:Odlar yurdu, 2001.-81s. (Xəlilov M.S., Quliyeva A.G. ilə birlikdə)
54. Kitabxana informatikası: Dərs vəsaiti, C.2. / Elmi red.: İ.Ə.Qurbanov.-B.:Odlar yurdu, 2002.- 164 s. (Xəlilov M.S., Qurbanov A.İ. ilə birlikdə).
55. Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı –Bakı: Mütərcim, 2012. – 310 s. (Qurbanov A.İ., Kazımi P.F. ilə birlikdə).

### Dos. Nadir İsmayılov

56. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi. - B.: Mütərcim, 2003.- 112 s.
57. Azərbaycan biblioqrafiyasının canlı salnaməsi.- B.: Mütərcim, 2003.-64 s.
58. Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики: Состояние и пути совершенствования.- Б.: Мутарджим, 2003.-134 с.
59. Respublika Elmi-Texniki Kitabxanasına daxil olmuş nəşrlərin biblioqrafik informasiya göstəricisi (1990-2003).- B.: Mütərcim, 2003.- 47 s.
60. Xəzər dənizi və neft (1954-2002): Biblioqrafik göstərici.- B.: Mütərcim, 2003.- 47 s.
61. Biblioqrafiyanın biblioqrafiyası: Respublika Elmi-texniki Kitabxanasının tərtib etdiyi biblioqrafik vəsaitlərin göstəricisi (1996-2000).- B.: Mütərcim, 2004.-15 s.
62. Biblioqrafik tərtibatın metodikası.-B.: Mütərcim, 2004.- 60 s. (R.Vəzirova ilə birlikdə)
63. Elmi-təbii ədəbiyyatın biblioqrafiyası.- B.: Mütərcim, 2004.- 100 s.
64. Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodiki məsələlər).-B.:Mütərcim, 2004.-111 s. (Q.Hacıyeva ilə birlikdə)
65. Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики: этапы развития, состояние и пути совершенствования.- Б.: Мутарджим, 2005.- 300с.
66. Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal: biblioqrafik göstərici (1997-2008-ci illər). – B., 2009. - 93 s.(prof.X.İsmayılovla birlikdə)
67. Heydər Əliyev və Azərbaycan elmi: Biblioqrafik göstərici. Bakı, "Şərq-Qərb", 2010.-424 s.
68. Kitabxanaçılıq-informasiya fakültəsi-60: Biblioqrafik məlumat kitabı.-B.:BUN, 2008.-273 s. (S.Sadıqova ilə birlikdə)

### T.f.d. Solmaz Sadıqova

69. Abel Məhərrəmov: Biblioqrafik məlumat kitabı. - B.: BUN, 2000. - 174 s. Ş.Tahirqızı ilə birlikdə
70. Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı. - B.: BUN, 2001. - 226 s.
71. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / Red. və ön sözün müəllifi A.M.Məhərrəmov. - B.: BUN, 2003. - 434 s. (A.Xələfovla birlikdə)
72. Гейдар Алиев: Библиографический справочник / Ред. и автор вступ. слова A.M.Магеррамов, Б.: Издательство Бакинского Университета, 2003, 446с. (Вместе с А.А.Халафовым)
73. Heydar Aliyev: Bibliographic reference book / Editor and preface A.Maharramov. - B.: Baku University Press, 2003. - 455 p. (Togeather with A.Khalafov)
74. Abuzər Xələfov: biblioqrafik məlumat kitabı. - B.: BUN, 2006. -142 s.
75. Kitabxanaçılıq-informasiya fakültəsi – 60: biblioqrafik məlumat kitabı. - B.: BUN, 2008. - 273 s. (N.İsmayılovayla birlikdə)
76. Azərbaycan Dövlət İqtisad Universiteti – 80: Biblioqrafik göstərici. - B.: ADİU-nun nəşriyyatı. - 2011. - 172 s.
77. Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı. - B.: Nağıl evi, 2011. - 342 s.
78. Elşad Qurbanov: biblioqrafik məlumat kitabı. – B.: Bakı Universiteti nəşriyyatı, 2012. – 270 s.
79. Kitabxanaçılıq-informasiya fakültəsi :Biobiblioqrafik lüğət. – B., 2012. – 255 s.

### B/ m. Qəmzə Hacıyeva

80. Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodiki məsələləri).-B.:Mütərcim, 2004.–111s.( N.İsmayılovla birlikdə)
81. Xarici biblioqrafiya.-B.: Bakı Universiteti Nəşriyyatı. – 2008.-150 s.

### B/ m. Sima İsmayılova

82. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası (1965-2000-ci illər).-B.:Nurlan, 2009.-S.184.
83. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi: Dərs vəsaiti.-B.:BUN, 2008.-S.66.

### Prof. Xəlil İsmayılov

84. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): Monoqrafiya. – B.: Bakı Universiteti Nəşriyyatı,

2000.- 416s.
85. Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti.-B.: Bakı Universiteti Nəşriyyatı, 2005.- 199s.
86. Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti; Təkrar 2-ci nəşri.- B., 2007.-197 s.
87. Kitabxana informasiya texnologiyaları: Dərs vəsaiti.- Bakı: Nurlar.-2009.- S.312
88. Kitabxana işinin təşkili və idarə olunması: Dərslik.- B.:Nurlar.- 2010

**B/ m. Sənubər Mustafayeva**

89. Normativ-texniki sənədlərin təsviri və təsnifləşdirilməsi: Dərs vəsaiti.-B: BDU nəşriyyatı, 2001.-214 s.
90. Biblioqrafik təsvirin tərtibi qaydaları:Dərs vəsaiti; 2-ci nəşri-B.: Bakı Universiteti Nəşriyyatı, 2007.-135 s.

**Dos. Sevda Xələfova**

91. Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990).- Bakı Universiteti Nəşriyyatı.- 2007.- 160 s.
92. Kitabxana kataloqlaşdırmasının təkamülü // Monoqrafiya.- Bakı, BUN.-2011.- 290 s. (A.Qurbanov, N.İsmayılova ilə birlikdə)

**Dos. Knyaz Aslan**

93. Mənalı ömür yolu (A.A.Xələfovun anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr edilir). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001. – 230 s. *(M.Bağırovla birlikdə).*
94. Professor Abuzər Xələfov – 70. ("Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri və təcrübi-metodik jurnalının xüsusi buraxılışı). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001. – № 1. – 148 s.
95. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu (Azərbaycan kitabxanalarının materialları əsasında): Monoqrafiya. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2005. – 300 s.
96. Barlı-bəhərli illər (BDU-nun kafedra müdiri, dosent T.Quliyevin anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr olunur). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2005. – 180 s.
97. Elm və təhsil fədaisi: Monoqrafiya (Əməkdar elm xadimi, professor A.Xələfovun həyat və fəaliyyətinə həsr edilir). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006. – 240 s.
98. Müdriklik və alimlik zirvəsində (Məqalələr məcmuəsi) (Prof.A.Xələfov – 75). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006. – 160 s. *(R.Kazımovla birlikdə).*
99. Azərbaycanda təhsil sisteminə kitabxana xidməti: Dərs vəsaiti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007. – 160 s.
100. Qədim və orta əsrlər dünya kitabxanaları: Dərs vəsaiti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008. – 240 s.
101. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu (Azərbaycan kitabxanalarının materialları əsasında): Monoqrafiya. 2-ci nəşri. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008. – 324 s.
102. Dünya kitabxanaları tarixi (XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək):





Dərs vəsaiti. 2-ci nəşri. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010. – 448 s.
103. Qədim və orta əsrlər dünya kitabxanaları (Ən qədim zamanlardan XVII əsrin ortalarınadək): Dərs vəsaiti. 2-ci nəşri. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011. – 416 s.
104. Sevil Sultan qızı Ağabəyli: Biblioqrafiya. – Bakı, 2011. – 88 s.
105. Kitabşünaslığın və nəşriyyat işinin aktual problemləri: Monoqrafiya. – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2012. – 160 s.

**Prof. Bayram Allahverdiyev**

106. Ümumi kitab tarixi.–B.: «Azərbaycan Milli Ensiklopediyası» NPB, 2003. –384 s.
107. Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti: Monoqrafiya.- Bakı: UniPrint, 2010. -144 s.
108. Kitabşünaslığın əsasları: Monoqrafiya. – B.: UniPrint, 2011. – 446 s.

**Dos. Nailə Mehrəliyeva**

109. Yeniyetmələrin mənəvi tərbiyəsində məktəb kitabxanalarının yeri. – B.: Səda, 2006. –223 s.

**Dos. Şəhla Tahirqızı**

110. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti nəşriyyatının nəşrləri: biblioqrafik göstərici (1987-1997-ci illər). Bakı.: Bakı Universiteti Nəşriyyatı, 1999. - 115 s.
111. "Kitabi-Dədə Qorqud" dastanının Bakı Dövlət Universitetində tədqiqi (biblioqrafik göstərici). B.: Bakı Universiteti Nəşriyyatı, 1999. - 74 s.( Şərikli)
112. Abel Məhərrəmov: Biblioqrafik məlumat kitabı. - Bakı, Bakı Universiteti Nəşriyyatı, 2000. - 174 s. (S.Sadıqova ilə birlikdə)
113. Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı. – B.: Bakı Universiteti Nəşriyyatı, 2001. - 226 s. (S.Sadıqova ilə birlikdə)
114. Azərbaycan kitabşünaslığı (biblioqrafik göstərici). – B.: Bakı Universiteti nəşriyyatı, 2003. - 102 s. (S.Sadıqova ilə birlikdə)
115. Nizami Cəfərov (biblioqrafik məlumat kitabı). – B.: Bakı Universiteti nəşriyyatı, 2004. – 302 s.
116. Nəşriyyat işinə dair qısa məlumat kitabı. – B.: Bakı Universiteti nəşriyyatı, 2005. –73s. (E.Zeynallı ilə birlikdə)
117. Müəllif hüququ (dərs vəsaiti). – B.: Bakı Universiteti nəşriyyatı, 2007. – 210 s.
118. Məzahir Daşqının poeziyası. Monaqrafiya. B.:Nurlan nəşriyyatlı, 2009.-200s.
119. Qara Mustafa oğlu Namazov: biblioqrafik məlumat kitabı. – B.: Elm , 2011. – 108 s.

**Dos. Vüsalə Musalı**

120. XV-XVII əsr türk təzkirəçiliyi: monoqrafiya. -B.: Nurlan, 2007.- 270 s.
121. Osmanlı təzkirələrində Azərbaycanlı şairlər.- B.: Nurlan, 2009. – 368 s.
122. Türk təzkirəçiliyi: Biblioqrafiya.- B.: Elm və Təhsil, 2011. – 398 s.
123. Mətnlərin nəşrə hazırlanması problemləri. -B.: Elm və təhsil, 2012. – 264 s.
124. Azərbaycan təzkirəçilik tarixi. – B.: Elm və təhsil, 2012. – 380 s.

**Fil.f.d. Sevda Quliyeva**

125. Azərbaycan soraq-məlumat ədəbiyyatı: yaranması, müasir vəziyyəti və inkişaf perspektivləri: Monoqrafiya.- B.: Təhsil, 2006. – 176 s.

## Scientific publications of library and information faculty in years of independence (2000-2012 Y.)

**S.Sadigova**

**Summary**

The article is devoted to the scientific works, published in Library and information faculty after 2000. It is told about help to study of textbooks, manuals published according to requirements of the century of information, about significance of these publications in preparation of highly skilled experts in this area.

***Keywords:*** Century of information; Library and information faculty; textbook scientific works; textbook; highly skilled experts.

## Научные публикации библиотечно-информационного факультета в годы независимости (2000-2012 гг.)

**С.Садыгова**

**Резюме**

Статья посвящена научным работам, опубликованные в Библиотечно-информационном факультете после 2000 г. Рассказывается о помощи учебе учебников, учебных пособий опубликованных по требованиям информационного века, о значении этих публикаций в подготовке высококвалифицированных специалистов в этом области.

***Ключевые слова:*** Информационный век; Библиотечно-информационный факультет; научные труды; учебник; высококвалифицированные специалист.